Məmmədova Ruqiyyə Bəhrəm q.[51]

Əli ƏMİRLİ KOMEDİYALARINDA DÖVRÜN BƏDİİ-ESTETİK TƏCƏSSÜMÜ

Azərbaycan Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı sosializmin kapitalizmlə əvəz olunduğu, Azərbaycanın müstəqilli kqazandığı birdövrə təsadüfetdiyi üçün ədəbiyyatda bir ço xyeniliklərlə özünü göstərmişdir. Ədəbiyyatımıza yeni məzmun, yeni mövzu, fərqli üslub-ideya, yeni janrlar, yeni qəhrəmanlar gəlmişdir. Müasir dövrdə də dramaturgiyada ən çox yazılan əsərlər komediya janrında olmuş, dramaturqlar dövrün problemlərini, qüsurlarını, mühüm məsələləri bu janr daxilində təsvir etmişlər. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi olan Əli Əmirli Azərbaycan dramaturgiyasına, Azərbaycan komediyasına öz adını qızıl hərflərlə yazdırmışdır. Sənətkar dramaturji yaradıcılığa 1990-cı illərdən başlamış, "Bala, bəla sözündəndir?", "Varlı qadın", "Onun iki qabırğası", "Köhnə ev","Kişi və qadın" kimi komediyalarla ədəbiyyatımızı, dramaturgiyamızı daha da zənginləşdirmiş, pyesləri ölkəmizin əksər teatrlarında uğurla tamaşaya qoyulmuş, müstəqillik dövrü səhnəmizin inkişafında mühüm rol oynamışdır. Əli Əmirlinin istedadlı yazıçı, görkəmli dramaturq kimi yetişməsinə, bir-birindən dəyərli pyeslər ərsəyə gətirməsinə yaşadığı dövrün keçid dövrünə təsadüf etməsi, Sovet dövrünün insanların psixologiyasında qoyduğu izlər, müstəqillik dövrünün özüylə bərabər gətirdiyi abhava çox təsir etmişdir. Tanınmış teatrşünas Aydın Talıbzadə Əli Əmirli haqqında yazdığı məqaləsində Əli Əmirlinin istedadlı bir dramaturq kimi tanınmasında dövr faktorunu xüsusi ilə qeyd etmişdir. "Əli Əmirlini dramaturq eləyən Azərbaycanın müstəqilliyi, meydanda səslənən "azadlıq nitqləri", azərbaycanlıların küçələrə dağılmış passionar enerjisi, Qarabağın içində və çölündə gerçəkləşmiş siyasi-diplomatik oyunlar və onların Bakı əks-sədası, bu oyunlar ucbatından qırıla-qırıla, qaça-qaça, köçə-köçə şəhərə çatıb öz xoşbəxtliyi sorağında vurnuxan adi zavallı insanların sərgüzəştləri olub" [4, səh.778].

Əli Əmirli dramaturgiyası mövzu baxımından çox rəngarəng olmuş, müasir dövrdə önəmli olan hər bir məsələyə toxunmuş, oxucunu, tamaşaçını narahat edən mühüm problemləri qələmə almışdır. Onun əsərlərində ictimai-siyasi, ümummilli, ailə-məişət, sosial və s. məsələlər, müstəqillik dövrünün bütün çatışmazlıqları təsvir olunmuşdur.

Yazıçının bəzi komediyalarının mövzusu istər dünən, istər bu gün, istərsə də gələcək üçün aktual olan məsələlərdir. Sənətkarın "Bala, bəla sözündəndir?" pyesində hadisələr müasir zamanda cərəyan etsə də, hər bir dövrdə cəmiyyətimizi narahat edən məsələlər burada öz əksini tapmışdır. Bütün hadisələr bir ailə daxilində göstərilsə də əslində buradakı problem umumilli, olduqca vacib bir məsələdir. Əsərdə hadisələr oğullarını əsgərlikdən yayındırmaq üçün hər yola əl atan ailənin, hətta bu ailənin timsalında bəzi üzdəniraq ailələrin düşdüyü komik vəziyyəti komediya şəklində ərsəyə gətirir. Ata İzzət Nəfisli və ana İzzət Nəfisli əsgərliyə göndərməmək üçün övladlarının birinə dəlilik kağızı alsalar da, digərini vətənə xidmətdən yayındırmaq üçün çarə tapmaqda aciz vəziyyətdə qalırlar. Əslində yazıçının kişi və qadın obrazına eyni ad verməsi əsərdə baş verəcək hadisələrdən xəbər verir. Sənətkar əsərdə ata İzzət Nəfislinin çağırış gəldiyi zaman verdiyi reaksiyanı elə gözəl şəkildə təsvir edir ki, insanın gözünün qarşısında bugünkü gündə də oğullarını əsgərliyə göndərməmək üçün min cür hiyləyə əl atan İzzət Nəfislilər canlanır. "Ata. "Vay dünya, gorun çatlasın sənin... Mənim evimə mənim oğluma, İzzət Nəfislinin qapısına povestka göndərirlər. Guya mən silesaram, şoferəm, injenerəm, nə bilim müəlliməm? Bu nətəər hökümətdi, nətəər prezidentdi, ə? Nə böyük tanıyırlar, nə kiçik sayırlar" [2, səh. 89]. Vəzifəsi, pulu heç bir işə yaramayan İzzət Nəfislilərin oğulu Cəmili əsgərlikdən yayındırmaq üçün fikirləşdikləri yol isə olduqca gülünc, absurd bir yoldur. Onlar Cəmili göndərməmək üçün ağıllı insanın xəyalına gətirmədiyi, axırıncı yola əl ataraq onu qız kimi qələmə verməkdən belə çəkinmirlər. Çünki İzzət Nəfisli kimi vəzifə düşkünü insanlar üçün vətən, millət, namus, qeyrət, təmiz ad heç bir əhəmiyyət kəsb etmir. "Ata. Düşmən gülləsinə tuş gəlməkdənsə, sənin kimi arvad olmaq yaxşıdır. Vremenni şeydi də... müharibə ömürlük deyil ki, bunun qurtaran vaxtı olacaq də. Lap lazım gəlsə, qızgili də başa salarıq. Bir də kim gələcək? İndi bir beş-on gün arvad paltarı geyməklə dönüb qız olacaq? Ana. Adə, səni deyir də. Papan istəyir ki, sən dönüb qız olasan, arvad paltarı geyib oturasan evdə" [2, səh. 93]. Bu əsl azərbaycanlı ailəsi üçün biyabırçılıq, faciə idi. Bu yalnız bir ailənin deyil, bütöv bir cəmiyyətin faciəsi idi. Çox təəssüf ki, cəmiyyətimiz bu faciə ilə nəinki 1993-cü ildə birinci Qarabağ müharibəsi zaman qarşı-qarşıya idi, eləcə də çox yaxın keçmişdə 2020-ci il ikinci Qarabağ müharibəsində də buna oxşar hallara təsadüf olundu.

Azərbaycan Respublikasının müstəqillik qazanması, Sovet hakimiyyətinin devrilməsi, sosializmin kapitalizmlə əvəz olunması insanların istər sosial-iqtisadi vəziyyətinə, istərsə də psixoloji durumuna, fikir və düşüncələrinə təsirsiz ötüşməmişdir. Təbii ki, bu məsələlər vətənini, xalqını, xalqının övladlarını sevən, onun taleyini düşünən heç bir vətəndaşın diqqətindən yayına bilməzdi. Cəmiyyətimizdə baş verən bu dəyişikliklərə, əlbəttə ki, ədəbiyyat sahəsindəki heç bir sənətkar biganə qalmamış, xüsusi ilə də dramaturqlar bu məsələlərə daha həssas yanaşmışlar. Digər dramaturqlar kimi Əli Əmirli komediyalarında da bu məsələlər istər əsərlərin mövzu və ideyasında, istərsə də obrazların mənəviyyatlarında, düşüncələrində, hərəkət və danışıqlarında özünü göstərir. Yazıçının "Köhnə ev" komediyası da bu qəbildən olan əsərlərdəndir.

Əsərin əsas qəhrəmanı əvvəlki mövqeyi zəifləmiş, hörmətdən düşmüş sosialist əməyi qəhrəmanı, neftçi Qüdrət Qurbanoviç sosializm tərəfdarı, yeni dövrlə barışa bilməyən bir obraz kimi təsvir olunur. Yazıçı bu obrazın nitqi ilə sosialist insanının narahatlığını, keçmiş günlərin o dövr insanında yaratdığı xoş xatirələri qələmə alır. Qüdrət Qurbanoviç: " Bəlkə sən deyəsən, nə qonaqlıqdı bu? Sosializmdi? Bəlkə kommunizmdi, xəbərimiz yoxdu? Bilmirsiz ki, millət qırılır acından? Qurtardı ey o günlər, hamı arxayınıydı hökümətə, qurtardı, yeyib qurtardılar. Bəlkə xəzinə tapmısınız? Dillənin də! Yoxsa

[51] Bakı Slavyan Universiteti (doktorant). yye.ehmedova@bk.ru

cavab verməyə sözünüz yoxdu? Axı bilmək olmur bayram hansıdı, matəm hansı? Çox vaxt üst-üstə düşür...” [2, səh. 314]. Qüdrət Qurbanoviçin bu nitqindən onun keçmiş günlər üçün necə darıxdığı, yeni dövrün çətinliklərinin onu necə qorxuya salması, narahat olması açıq-aşkar görünür.

Köhnə dövrlə yeni dövrün digər qütbündə, ziddiyyətin digər tərəfində isə pul üçün hər cür hiyləyə, yalana üz tutan, yüksək vəzifələrə çatmaq üçün dəridən-qabıqdan çıxan biznesmen Sahib durur. Pyesdə Qüdrət Qurbanoviçin qızı yeni dövrlə barışa bilməyən, yeni həyatı, yeni evi ilə barışa bilməyən, SSRİ xalq artisti, dünyanın əlli iki ölkəsini gəzmiş Zara xanım, onun keçmiş sevgilisi Kamran, Kamranın yüngül əxlaqlı arvadı Böcək, Zəhranın qızı, yeni dövrün nəbzini tutmağı bacara bilən Cana kimi obrazlar iştirak edir. Komediyada əsas hadisələr isə əsərin əvvəlindən hazırlıq görülən qonaqlıq vaxtı baş verir. Yazıçı bu qonaqlıqda zidd tərəfləri, mövqeləri qarşılaşdırır.Yazıçı Kamran və onun yüngül əxlaqlı həyat yoldaşı Böcəyin simasında bu qəbildən olan insanların daxil olduğu təbəqənin mədəniyyəti ilə kütləvi mədəniyyəti qarşılaşıdırır. Bu qarşılaşmada keçid dövrü üçün xas olan kütləvi mədəniyyət qalib gəlir, Zəhra Sahibdən evin qarşılığında aldığı pul ilə Böcəyi öz ölkəsinə göndərərək keçmişini, Kamranı geri qaytarır. Əli Əmirli Böcəyin bu aqibəti ilə ölkəsində sanki bu mədəniyyətə yer olmadığını göstərir.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında simvoldan istifadə olunması əsas xarakterik xüsusiyyətlərdəndir. Əli Əmirlinin “Köhnə ev” pyesində də ev əslində simvolik xarakter daşıyır. Əli Əmirli dövrün ziddiyyətli hadisələrini insanlara çatdırmaq, yeni dövrdə mənəvi dəyərlərin pul, maddiyyat qarşısında tənəzzülə uğramasını köhnə evdən istifadə edərək göstərmişdir. Köhnə evin sahibi Qüdrət kişinin evini vermək istəməməsi, evinin satıldığını eşitdikə verdiyi reaksiyalar köhnə nəslin öz mənəvi dəyərlərinə necə sahib çıxdığını, bu dəyərlərin onlar üçün nə qədər müqəddəs olduğunu göstərir. Lakin sonda Qüdrət kişinin evdən rəhmətə getmiş həyat yoldaşının şəklini də götürüb getməsi, köhnə evi tərk edib yeni evə köçməsi insanların istəyib-istəməməyinə baxmayaraq yeni dövrün yetişdiyindən xəbər verirdi. Müasir dövrün nəbzini tutmağı bacaran Əli Əmirli dramaturgiyasında ailə-məişət münasibətləri, ailəiçi məsələlər, ailə daxilindəki real problemlər əsas mövzulardan olmuşdur. Yazıçı belə əsərlərində baş verən hadisələri bir ailə daxilində təsvir etsə də, əslində bu hadisələrin fonunda cəmiyyətdəki bir sıra taleyüklü problemlərə toxunmuşdur. Ümumiyyətlə Əli Əmirli komediyalarının bir neçəsi ailənin özülünü təşkil edən arvad-kişi münasibətlərinə, bu münasibətlərdəki boşluqların mahiyyətindəki əsas problemləri üzə çıxarmağa həsr olunmuşdur. Dramaturq onları qarşı-qarşıya qoyaraq adətən kişiləri zavallı, aciz, yazıq, köməksiz bir obraz kimi göstərmişdir. Onun belə bir yola əl atması da təsadüfi deyildir. O, bununla problemin özülünə, kişiləri bu vəziyyətə salan keçid dövrünə, onları ailələri qarşısında məyus edən maddi sıxıntılara, pulsuzluğa işarə etmişdir. Əli Əmirlinin insanlar tərəfindən çox sevilən, teatrlarda tez-tez yer alan “Varlı qadın” komediyası da bir ailə daxilində baş verən hadisələrdən bəhs edir. Əsərdə pul üçün ata-anasından keçən övlad, ərindən imtina edən arvad, arvadının başqa kişi ilə ailə qurmasına belə razı olan ərin yer aldığı bir ailə təsvir olunur. Bu insanlar üçün namus, qeyrət, sədaqət sevgi yalnız puldan ibarətdir.

Əsərin birinci hissəsində ailə maddi sıxıntılar içində qıvranır, pulsuzluq, parasızlıq qarşısında aciz durumda qalır, hətta vəziyyət o qədər acınacaqlı hal alır ki, ər və arvad intihar həddinə qədər gəlib çatır. Lakin bir anda, bir xəbərlə vəiyyət tamamilə dəyişir, hadisələr başqa istiqamətdə inkişaf edir. Həvva Zərlinskiyə Almaniyadakı qohumu tərəfindən miras qaldığı, milyon dollara sahib olduğu aşkara çıxır. Əsərin əvvəlində kasıblıqdan daim şikayət edən, ərini şikayətləri ilə təhqir edən, dişsiz, döşsüz axsaq Həvva Zərlinski birdən-birə zərli-zibalı, kosmetikalı, xaricən gözəlləşsə də daxili aləmi daha da çirkinləşən Yeva Zərlinskiyə çevrilir. Onun üçün elə də əhəmiyyət kəsb etməyən ailə münasibətləri, sevgi-sayqı, sədaqət kimi hislər tamamilə dəyərini itirir. O, universitetdə işləyən, doktorluq müdafiə edən, ailəsini dolandırmağa gücü çatmayan, buna görə də daim ailəsi tərəfindən alçaldılan əri Sarı Qarayevi evdən qovmağa belə hazırdır. Ailənin bir anda varlanmasının aiədaxili münasibətlərə təsiri ilə yanaşı, cəmiyyətin də ailəyə qarşı münasibətini dəyişdirir. Əvvəl dilənçi tərəfindən belə sayılmayan, bəyənilməyən ailə bir anda ölkənin gündəminə çevrilir. Yazıçı obrazların danışığından elə göstərir ki, hətta Respublika iqtisdiyyatı da Almaniyadan gələn pullardan aslıdır. Dramaturq bununla keçid dövründə ölkədə maddi durumun nə qədər acınacaqlı olduğunu, pulun hər kəs üçün önəmini göstərir. Ədəbiyyatşünas Aydın Talıbzadə bu haqda yazır: “Komediyanın əməl partiturasının mərkəzində isə Cənab Pul dayanır. Cənab Pul pyesin dünyasını və personajlarını başqalaşdırır, əvvəlki xarakterləri pozub əvəzinə yenilərini yazır, münasibətlər modusunu tamam fərqli bir dalğaya kökləyir. Pul üstündə o bundan, bu ondan imtina etməyə hazıdır, insanlığı tapdalamağa hazırdır, keçmişi unutmağa hazırdır, min cür sərgüzəşt və oyunlara qatılmağa hazırdır” [4, səh. 778]. Lakin ailənin bu sevinci sona qədər davam etmir, onlar yenidən çətin sınaq qarşısında qalır, ailə milyonlara sahib olmaq üçün Yeva Zərlinski Zərlinski nəslindən olan cılız, balaca bir kişi ilə evlənməlidir. Lakin bu şərt belə Yeva Zərlinskini öz fikrindən belə döndərmir, çünkü ona ailədən də, sevgidən də önəmli puldur. Beləliklə, biz bu qadının necə mənəviyyatdan kənar, pul düşkünü bir obraz olduğunu bir daha görürük. Dövrün aciz vəziyyətə saldığı Sarı Qarayevə isə lap yazığımız gəlir. Əsərin sonunda onun Zərlinskilər nəslindən olduğunun ortaya çıxması hadisələri şirin finala çatdırsa da sonda Həvva Zərlinskinin gəliş xəbəri vəziyyəti müşkül hala salaraq obrazlarda çaşqınlıq yaradır, tamaşaçıları isə surətlərin taleyi ilə bağlı intizarda saxlayır. Əsərdə Sarı Qarayevin Zərlinskilər nəslindən olması ilə hadisələrin sonlanmsı keçid dövrü olmasına baxmayaraq sosrealizm dramaturgiyasının əlamətlərinin hələ də mövcudluğundan xəbər verir. Çünki qlobal ziddiyyətləri, sosial-siyasi, iqtisadi problemləri həll etmədən hadisələri xoşbəxt sonluqla bitirmək məhz bu dövr dramaturgiyaya məxsus xüsusiyyətlərdən idi. Yazıçı “Bala başa bəla” pyesində olduğu kimi “Varlı qadın” əsərində də jurnalistlərin baş verənlərə hay-küylə yanaşması, insanların şəxsi həyatına hörmətsizcə müdaxilə edərək olanları sensasiyaya çevirməsi kimi hadisələri təsvir etməklə komediyaya bir hərəkətlilik, canlılıq gətirsə də, mənim fikrimcə, bir tərəfdən də hər işə qarışan, insanların şəxsi həyatına hörmətlə yanaşmayan bəzi müxbirlərə bu səhnələrdə

tənqidi yanaşır. Ailədən olmayan, lakin tənqid hədəfinə tuş gələn digər bir obraz isə sırtıq, yalançı, yaltaq dilənçi obrazıdır. Dramaturq bu obraz vasitəsi ilə isə qaçqınlıq statusundan istifadə edən, özünü yazıq, dilənçi kimi göstərən, istədiyini almadıqda isə insanaların başına kül ələyən adi bir tipajdır.

Əli Əmirlinin komediyalarındakı bütün qadınlar Həvva Zərlinski kimi acgöz, pul düşkünü, mənəviyyatsız deyil. "Kişi və Qadın" pyesinin Emması Həvva Zərlinskidən fərqli olaraq əsl sevginin, sayqının nə olduğunu bilən, öz ailəsi üçün, ailəsinin dağılmaması üçün ərinin xəyanətinə belə göz yuman, yoldaşının ona qarşı etdiyi haqsızlıqlara, xəyanətlərə baxmayaraq ona qarşı sadiq, dürüst qalan obrazdır. Sənətkar bu obrazın simasında əsl Azəbaycan qadınının obrazını umumiləşdirmişdir. Onun həyat yoldaşı Əvəz isə xəyanətkar, mənəviyyatdan kənar, arvadını pul , əyləncə, gəzmək üçün öz müdiri ilə tanış edən şərəfsiz bir insandır. Əgər "Varlı qadın"da Sarı Qarayevə oxucunun, tamaşaçının yazığı gəlirdisə artq bu əsərdə Əvəz nifrət obyektinə çevrilir. Komediyada onunla zidd mövqeydə isə öz arvadını, əsl məhəbbətlə sevən, bir an onu unutmayan, ölümünü qəbullana bilməyən Cəmil surəti dayanır. Əli Əmirli özünün sevgi haqqında fikirlərini, düşüncələrini Emma və Cəmilin dialoqlarında əks etdirir. "Cəmil: Nə danışırsınız Emma? Mən o uşaqları, sizə "ana" deyib əl uzadan körpələri görəndə sarsıldım. Biz necə mənasız, əhəmiyyətsizbir ömür yaşayırıq. Pul yığmaqdan, qızılın cingiltisindən ləzzət almışıq, amma mən həqiqi ləzzəti o ianəni verəndə duydum. Demə əsl səadət o körpələrə dayaq durmaqda imiş. Onları sevmək bacarığıdır xoбəxtlik. Emma. Məhəbbətsiz insan boşdur, Cəmil bəy, mənasızdır. Biz bilə-bilə bu böyük sözü bəsitləşdiririk. Elə bilirik ki, məhəbbət kişinin qadına, qadının kişiyə olan sevgisidir. Əsl məhəbbət mərhəmətdədir" [2, səh. 457]. Dramaturq Emma və Cəmilin bu dialoqları ilə öz oxucusuna əsl sevginin kişi qadın məhəbbətindən ibarət bəsit bir şey olmadığını, əsl səadətin, sevginin, xoşbəxtliyin sənin sevginə, qayğına ehtiyacı olan kimsəsiz insanlara, körpələrə mərhəmət etməklə olduğunu göstərir. Yazıçı Emmanı əsərin sonunda bir obraz kimi daha da yüksəklərə qaldırır, oxucunun gözündə daha da sevimli, ideal bir obraza çevirir. Emma aciz bir obraz kimi görünsə də əsərin sonlarına yaxın dramaturq onu öz sözünü deməyi bacaran, ərindən səhvlərinə görə hamiləlik yalanı ilə qisas almağı bacaran, xəyanəti bağışlamayan məğrur, qürurlu bir surət kimi təsvir edir.

Komediyanın finalında yazıçı Emmanı iki seçim qarşısında qoyur: özünü bu həyatdan köçmüş bir qadının yerinə qoyub ömür boyu onun kölgəsi kim yaşamaq, yoxsa on beş il yaşanan xəyanətlərin bir ömür davam etməsinə gözmü yummalı? Təbii ki biz əsərdə bu suala cavab tapmasaq da Emma kimi bir qadının iki seçimin heç biri ilə razılaşmıyacağına güman edirik. Əli Əmirli pyeslərində insanların əsl üzünü açmağı, onları elə öz danışıqları ilə vurmağı , pisi pis, yaxşını yaxşı kimi göstərməyi, bunu oxucuya, tamaşaçıya çatdırmağı bacaran bir sənətkardır

Ədəbiyyat

1. Dadaşov A. "Müasir Azərbaycan dramaturgiyası". Bakı, "Elm və Təhsil", 2012, 304 səh.
2. Əmirli Ə. 15 pyes. Bakı, "Öndər nəşriyyat", 2006, 568 səh.
3. " Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı". 2cilddə. 1cild. Bakı, "Elm və təhsil", 2016, 800 səh.
4. " Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı". 2cilddə. 1cild. Bakı, "Elm və təhsil", 2016, 1088 səh.
5. Səfiyev A. Komediya və həyat. Bakı, Yazıçı, 1983, 200 səh.

Açar sözlər: dramaturgiya, komediya, ədəbiyyat, yazıçı, simvol.

Ключевыеслова: драматургия, комедия, литература, писатель, символ.

Key words: dramaturgy, comedy, literature, writer, symbol.

Художественно-эстетическое воплощение эпохи в комедиях Али Амирли.

Резюме

В статье исследуются художественно-эстетическое воплощение периода Независимости в комедиях Али Амирли и проблемы современной эпохи. Для исследования этих вопросов были рецензированы некоторые комедии Али Амирли по их сюжетным и содержательным характеристикам. Социально-экономические и политические проблемы, возникшие в период независимости, анализируются на основе произведений Али Амирли «Бала-бала от слова», «Богатая женщина», «Старый дом», «Мужчина и женщина».

Независимость Азербайджанской Республики, свержение Советской власти, замена социализма капитализмом не оказали влиянияна социально-экономические и психологические условия, идеи и мысли людей. Конечно, эти вопросы не могли ускользнуть от внимания любого гражданина, который любит свою страну, народ, детей своего народа, думает о его судьбе. Конечно, ни один художник в области литературы не остался равнодушным к этим переменам в нашем обществе, особенно чувствительными к этим вопросам были драматурги. В комедиях Али Амирли, как и других драматургов, эти вопросы проявляются в темах и идеях произведений, а также в нравах, мыслях, действиях и разговорах персонажей.

Таким образом, на основе каждой упомянутой в статье комедии были проведены исследования по указанным вопросам. Проанализированы роль и место азербайджанской комедии в нашей литературе периода независимости

Artistic and aesthetic embodiment of the period in Ali Amirli's comedies

Summary

İn the article, the artistic aesthetic embodiment of the Independence period in Ali Amirli's comedies and the problems of the modern era are explored. Some of Ali Amirli's comedies were reviewed based on their subject and content characteristics in order to explore these issues. The socio-economic and political problems during the period of independence are analyzed on the basis of Ali Amirli's works such as "Rich woman", "Old house", Man and woman".The independence of the Republic of Azerbaijan, the overthrow of the Soviet government, and the replacement of socialism with capitalism left an

impact on people's socio-economic and psychological conditions, ideas and thoughts. Of course, these issues could not escape the attention of any citizen who loves his country, people, children of his people, and thinks about their fate. Of course, no artist in the field of literature remained indifferent to these changes in our society, especially playwrights were more sensitive to these matters. In the comedies of Ali Amirli, like other playwrights, these issues are manifested in the themes and ideas of the works, as well as in the morals, thoughts, actions and conversations of the characters.

Thus, on the basis of each comedy mentioned in the article, researches were conducted on the mentioned in the article, researches were conducted on the mentioned issues. The role and position of Azerbaijani comedy in our literature during the period of independence was analyzed.

RƏYÇİ: dos. E.Vəliyeva